# ARDAHAN UNİVERSİTETİ

# XARİCİ ÖLKƏ VƏTƏNDAŞLARI (ƏCNƏBİ) TƏLƏBƏLƏRİN MÜRACİƏTİ, QƏBULU VƏ QEYDİYYATI ŞƏRTLƏRİ

## MÜRACİƏT EDƏN ABİTURİYENTLƏRİN

Türkiyə daxilində və Türkiyə xaricində müraciətləri Ardahan Universiteti web səhifəsi (www.ardahan.edu.tr) üzərindən ÜBYS – Menü – Uluslararası Öğrenci Başvurusu (Beynəlxalq Tələbə Müraciəti) linki ilə gerçəkləşdiriləcəkdir. Müraciət müddəti ərzində həyata keçirilməyən müraciətlər qəbul edilməyəcəkdir.

1- Abituriyentlər orta təhsil diplomu ballarına görə müraciət edəcəklər.

2- Abituriyentlər istədikləri halda universitetimiz tərəfindən qəbul edilən 2022-2023 YÖS (Yabancı Uyruklu Öğrenci Sınavı) balları ilə də müraciət edə biləcəklər. YÖS balıyla müraciət etmək istəyən namizədlər üçün yerləşdirmə balı orta təhsil diplomu balının 60 faizi ilə YÖS balının 40 faizi diqqətə alınaraq hesablanacaqdır.

2023-2024 tədris ilində universitetimizə qəbul üçün müraciət edəcək əcnəbi tələbələrə oriyentasiya (yönləndirmə) təhsili verilməsi məcburi və ödənişlidir. Xarici ölkə vətəndaşı tələbə namizədlərinin oriyentasiya təhsili dollarla 50 ABŞ dolları, Türk lirasıyla 1250 TL olub, aşağıdakı IBAN nömrələrinə ödənməlidir. Əcnəbi abituriyentlər oriyentasiya təhsili haqqını ödədikdən sonra Uluslararası Öğrenci Başvuru (beynəlxalq tələbə müraciəti) ekranındakı oriyentasiya videosunu izləyə biləcəklər. Əcnəbi abituriyentlər oriyentasiya videosunu izlədikdən sonra qəbul üçün müraciət edə biləcəklər.

- TL (Türk Lirası) hesabı – Ö.K. ORYANTASYON HES.; Bank və şöbə: Türkiye Halk Bankası A.Ş. 678 Ardahan Şöbəsi; IBAN TR630001200967800004000131; Müraciət haqqı 1250 (min iki yüz əlli Türk lirası).

- Dollar (ABŞ dolları) hesabı – ULUSLARARASI ÖĞRENCİ (beynəlxalq tələbə); Bank və şöbə: Türkiye Halk Bankası A.Ş. 678 Ardahan Şöbəsi; IBAN TR780001200967800058000149; Müraciət haqqı 50 USD (əlli ABŞ dolları).

Ardahan Universiteti

**Xarici ölkə vətəndaşı tələbələrin müraciətində qəbul edilən imtahanlar**:

| *Universitet adı* | *İmtahan adı* | *Senato qərarı* |
|---|---|---|
| 2809 saylı Ali Təhsil Qurumları Təşkilat Qanununa görə qurulan dövlət universitetlərinin hamısı | Dövlət universitetləri YÖS imtahanları | 18.12.2019 |
| Türkiyədə qurulan vəqf universitetlərinin hamısı | Vəqf universitetləri YÖS imtahanları | 16.07.2020 |
| ÖSYM Başqanlığı | 2023 - Tr - YÖS | 11.01.2023 |
| Ardahan Universiteti | 2023 ArÜYÖS (Qırğızıstan) | 04.05.2023 |

**Xarici ölkə vətəndaşı tələbə müraciətində qəbul ediləcək beynəlxalq imtahanlar**:
· SAT 1 imtahanından ən az 1100 toplam bal və ən az 600 riyazi bal.
· GCE (A level) imtahanında ən az biri müraciət edilən proqramla əlaqədar olmaq üzrə ən az 3 mövzuda A səviyyəsi,
· ACT imtahanında Riyaziyyat (Math), Fənn (Science Reasoning) və toplam (Composite) ən az 24 bal,
· Beynəlxalq Bakalavriat diplomuna malik və diplom balı ən az 30,
· ABITUR dərəcəsi ən çox 3, Matura dərəcəsi ən çox 3,
· Fransa Bakalavriatı diplomu balı ən az 12.

**Müraciət edəcək abituriyentlərin**:
a) Litsey (orta məktəb) son sinfində olmaları ya da məzun durumda olmaları şərtiylə;
1) Xarici ölkə vətəndaşları olanların,
2) Doğumla Türk vətəndaşı olub, Daxili İşlər Nazirliyindən Türk vətəndaşlığından çıxma izni alanlar və bunların Türk vətəndaşlığından çıxma sənədində qeydiyyatlı həddi buluğa çatmamış uşaqlarının Türk Vətəndaşlığı Qanununa uyğun olaraq aldığı Tanınan Hüquqlardan İstifadə Haqqında sənədə malik olduqlarını sənədlə təsdiqləyənlərin,
3) Xarici ölkə vətəndaşı ikən sonradan qazanılan vətəndaşlıqla Türkiyə Respublikası vətəndaşlığına keçənlərin / bu durumdakı ikili vətəndaşların,
4) Türkiyə Respublikası vətəndaşı olup orta təhsilinin bütününü KKTC (Şimali Kipr Türk Respublikası) istisna olmaqla xarici bir ölkədə bitirənlərin (orta təhsilinin hamısını KKTC istisna olmaqla başqa bir xarici ölkədəki Türk məktəblərində bitirənlər daxil),
5) KKTC vətəndaşı olub, KKTC-də yaşayan və KKTC-də orta təhsilini tamamlayan GCE AL (The General Certificate of Education-Advanced Level) imtahan nəticələrinə malik olanlar və 2005–2010 tarixləri arasında digər ölkələrdəki kollec və litseylərə qeydiyyatdan keçib, təhsil alaraq GCE AL imtahan nəticələrinə malik olan və ya malik olacaqların müraciətləri qəbul edilir.

b) **Abituriyentlərdən aşağıdakıların müraciətləri qəbul edilməz**:
1) Türkiyə vətəndaşı olub orta təhsilinin tamamını Türkiyədə və KKTC-də bitirənlərin,
2) KKTC vətəndaşı olanların (orta təhsilinin hamısını KKTC litseylərində bitirib GCE AL nəticələrinə malik olanlar və 2005-2010 tarixləri arasında digər ölkələrdəki kollec və litseylərdə təhsil alaraq GCE AL imtahan nəticələrinə malik olan və ya malik olacaqlar istisnadır),
3) Bu maddənin 2-ci (a) bəndinin 2 saylı alt bəndində müəyyən edilən doğumla ilk vətəndaşlığı Türkiyə Respublikası olan ikili vətəndaşların (orta təhsilinin hamısını KKTC xaricində başqa bir ölkədəki Türk məktəblərində bitirənlər / orta təhsilinin hamısını KKTC xaricində başqa bir ölkədə bitirənlər istisnadır),
4) Vətəndaşlığından birisi KKTC olan ikili vətəndaşların (orta təhsilinin hamısını KKTC litseylərində bitirib GCE AL nəticələrinə malik olanlar və 2005–2010 tarixləri arasında digər ölkələrdəki kollec və litseylərə qeydiyyatdan keçib, təhsil alaraq GCE AL imtahan nəticələrinə malik olan və ya malik olacaqlar istisnadır),
5) Türkiyədəki səfirliklər nəzdindəki məktəblərdə və Türkiyədəki xarici ölkələrin litseylərində təhsil almış Türkiyə vətəndaşı olan və ya bu maddənin 2-ci (a) bəndinin 2 saylı alt bəndində müəyyənləşdirilən doğumla ilk vətəndaşlığı Türkiyə Respublikası olan ikili vətəndaşların.

**Müraciət edən abituriyentlərin sıralanması** orta təhsil diplomları ballarına görə gerçəkləşdiriləcəkdir. Namizədlərin istəmələri halında YÖS (Yabançı Uyruklu Öğrenci Sınavı) balı ilə də müraciətləri qəbul ediləcəkdir. Diplom ballarının 60 faizi ve YÖS ballarının 40 faizi hesablanaraq əldə edilən bal ilə sıralanacaqlar.

Türkcə yetərlik (məqbul) imtahanında tələb edilən ən az balı toplaya bilməyən abituriyentlərə və Türkiyədə ali təhsil qurumlarından Türkcə yetərlik sertifikası olmayan abituriyentlərə universitemizdə TÖMƏR (Türkcə Öyrətim Mərkəzi) tərəfindən 1 il icbari Türkcə hazırlıq təhsili veriləcəkdir. Türkcə yetərliyi olmayan abituriyentlərin TÖMƏR qeydiyyatları **06.10.2023** tarihinə qədər davam edəcəkdir. C1-C2 TÖMƏR sertifikası almaları halında bir sonrakı təlim tədris ilindən etibarən universitetə qəti qeydiyyatları aparılacaqdır.
Türkiyədə ali təhsil qurumlarından Türkcə yetərlik sertifikası olan namizədlərin Ardahan Universiteti Türkcə yetərlik imtahanına girmələrinə gərək yoxdur.
*Türkcə testi balı yerləşdirmədə diqqətə alınmaz.*

**Türkcə yetərlik (məqbul) səviyyələri**:
a) C1 və C2 səviyyəsi: Türkcəsi məqbuldur. Qazandığı proqrama qeydiyyatı gerçəkləşdirilir.
b) B1 və B2 səviyyəsi: Türkcə səviyyəsi məqbul deyildir, ancaq yüksəldə bilər. Qazandığı proqrama qeydiyyatı Türk dili kursu keçmək şərtiylə aparılır. Tələbə ən gec üçüncü təlim-tədris ilinin əvvəlinə qədər Türkcə səviyyəsini C1-C2 səviyyəsinə yüksəltdiyini sənədləşdirməlidir. Bu müddət sonunda Türkcəsi hələ B1-B2 səviyyəsində olanlar dil səviyyəsini C1-C2 səviyyəsinə yüksəldənə qədər tədrisə davam edə bilməzlər.
c) A1 və A2 səviyyəsi: Türk dili səviyyəsi yetərsizdir (məqbul deyildir). Türk dili kursu keçməlidir. Bu vəziyyətdəkilər ən gec üçüncü tədris ilinin əvvəlinə qədər Türkcə bilgisini C1-C2 səviyyəsinə yüksəltdiyini sənədləşdirməlidir. Türkcə bilgisini C1-C2 səviyyəsinə yüksəldənlərə a maddəsi, B1-B2 səviyyəsinə yüksəldənlərə b maddəsi tətbiq olunur.
Türk dili yetərlik səviyyələri və bal aralıqları aşağıda müəyyənləşdirilmişdir:

| *Türk dili yetərlik səviyyələri* | *Bal (qiymət) intervalları* | *İzah-açıqlamalar* |
|---|---|---|
| C2 | 90 – 100 | Türkcəsi yetərlidir (məqbuldur). |
| C1 | 80 – 89 | Türkcəsi yetərlidir (məqbuldur). |
| B2 | 65 – 79 | Türkcəsi qısa zamanda yetərli vəziyyətə gələ bilər. |
| B1 | 50 – 64 | Türkcəsi qısa zamanda yetərli vəziyyətə gələ bilər. |
| A2 | 25 – 49 | Türkcəsi yetərsizdir (məqbul deyildir). |
| A1 | 0 – 24 | Türkcəsi yetərsizdir (məqbul deyildir). |

**TÜRKCƏ YETƏRLİK İMTAHANININ MƏZMUNU**:
Türkcə Yetərlilik İmtahanı Ardahan Universiteti TÖMƏR (Türkcə Öyrətim Tətbiq və Araşdırma Mərkəzi) tərəfindən **07/08/2023 - 15/09/2023** tarixləri arasında Ardahanda keçiriləcəkdir.
Türkcə Yetərlilik İmtahanı Oxuma-Anlama, Yazma və Danışma şəklində üç mərhələdə keçiriləcək və imtahan müddəti 1,5 saat olacaqdır.

2023-2024 TƏDRİS İLİ TÖMƏR SƏVİYYƏ TƏSBİT İMTAHANI TƏQVİMİ

| | | | | | |
|---|---|---|---|---|---|
| 11.08.2023<br>CÜMƏ<br>Saat 10.00 | 18.08.2023<br>CÜMƏ<br>Saat 10.00 | 25.08.2023<br>CÜMƏ<br>Saat 10.00 | 01.09.2023<br>CÜMƏ<br>Saat 10.00 | 08.09.2023<br>CÜMƏ<br>Saat 10.00 | 15.09.2023<br>CÜMƏ<br>Saat 10.00 |

TÖMƏR (Türkcə Öyrətim Tətbiq və Araşdırma Mərkəzi) tərəfindən **07.08.2023-15.09.2023** tarixləri arasında keçiriləcək Səviyyə Müəyyənləşdirmə və İstisna İmtahanı üçün tələbələr aşağıda verilmiş IBAN nömrəsinə 400 TL yatırıb qəbzləri imtahandan əvvəl şəxsən və ya e-poçt vasitəsilə Türkcə Öyrətim Tətbiq və Araşdırma Mərkəziinə təqdim etməlidirlər.

İmtahan ünvanı: Ardahan Universiteti ARÜSEM Binası, mərtəbə 1, TÖMƏR sinfi, Mərkəz Ardahan; İmtahan saati 10.00.
Bank: T.C. Halkbank A.Ş. 678 Ardahan Şöbəsi, IBAN TR430001200967800005000076, İmtahan ödəniş məbləğii 400 TL.

Türkiyədə ali təhsil qurumlarının hər hansı səviyyəsində təhsil alacaq xarici ölkə vətəndaşı tələbələrin giriş və yaşayış icazəsi işləri üçün gərəkənlər:

- Türkiyə xaricində görüləcək işlər (pasport işləri)
- Türkiyəyə gəlişlərindən etibarən görüləcək işlər (iqamət işləri)
- İqamət təzkərəsi (icazəsi) aldıqdan sonra görüləcək işlər (bildirim işləri)

**Türkiyə xaricində görüləcək işlər (pasport işləri)**:
Universitetimizə müraciət edən xarici ölkə vətəndaşı tələbələrin ünvanlarına qəbul edildikləri haqqında dəvətnamələr göndərilir. Tələbələr qəbul dəvətnamələri əsasında ölkələrinin aidiyyatlı orqanlarına müraciət edərək özlərinə pasport alırlar. Türkiyədə təhsil müddətində yaşayışını təmin edəcək maddi imkanlara malik olduğunu göstərən sənəd (bank hesabı, təqaüd sənədi vb). Lazım gəldiyində əlavə sənədlər istənə bilər.

**Türkiyəyə gəlişlərindən etibarən görəcəkləri işlər (iqamət işləri)**:
Türkiyəyə girilən tarixdən etibarən ən gec 30 gün içərisində aşağıdakı sənədlərlə birlikdə təhsil alınacaq bölgənin Köç (miqrasiya) İdarəsi Müdirliyi yabancılar (xarici ölkə vətəndaşları) şöbəsinə müraciət edərək, yabancılara (xarici ölkə vətəndaşlarına) məxsus iqamət təzkərəsi (icazəsi) alınması məcburidir.
a- Ali təhsil müəssisəsindən aldıqları qeydiyyat / qəbul sənədi və ya buna ekvivalent sənəd,
b- Qüvvədə olan və uzun müddətli pasport,
c- Türkiyədə təhsil müddətində yaşamını təmin edəcək maddi imkanlara malik olduğunu göstərən sənəd (bank hesabı, təqaüd sənədi vb),
d- Hər ilin əvvəlində "Rəsmi Gazete"də yayınlanan iqamət təzkərəsi dəyərli kağız xərci,
e- Lazım gəldiyində əlavə sənədlər tələb edilə bilər.

**İqamət təzkərəsi (icazəsi) aldıqdan sonra görüləcək işlər (bildirim işləri)**:
a- Təhsil məqsədli iqamət təzkərəsi (icazəsi) alan xarici ölkə vətəndaşı tələbələrin 1 gün içində Köç İdarəsindən Türkiyə Respublikası kimlik nömrələrini (TC yabancı kimlik) almaları lazımdır.
b- İqamət təzkərə müddətini uzatmaq istəyən xarici ölkə vətəndaşı tələbələrin iqamət təzkərəsində müəyyənləşdirilən müddətin başa çatmasından öncə ya da başa çatmasından ən gec 15 gün içərisində Köç İdarəsinə müraciət edərək müddətlərini uzatmaları lazımdır.
c- Məzuniyyət, qeydiyyat sildirmə, tələbəliklə bağlılığın kəsilməsi, davamsızlıq və başqa hallarda meydana gələcək dəyişikliklərin 15 gün içərisində, ünvan dəyişikliyinin isə 48 saat ərzində Köç İdarəsi Müdirliyinə bildirilməsi gərəkməkdədir.
d- İqamət təzkərələrində silinmə və qazınma, iqamət təzkərələrinin itirilməsi durumunda dərhal Köç İdarəsi Müdirliyinə müraciət edilərək yenisinin alınması lazımdır.
e- Tələbələrin Köç İdarəsində iqamət işlərini və TC yabancı kimlik işlərini bitirdikdən sonra qeydiyyatdan keçmək istədikləri universitetdən müvəqqəti tələbə sənədi alıb, Sosial Yardım Qurumuna müraciət edərək, ümimi sağlıq sığortalarını həyata keçirmələri lazımdır.

**QƏTİ QEYDİYYAT MÜDDƏTİ**:
- Universitetimizə qəti qeydiyyat haqqı qazanan xarici ölkə vətəndaşı tələbələrə müvəqqəti tələbə sənədi verilərək və Köç İdarəsi Müdirliyinə göndərilərək, İqamət təzkərəsi (icazəsi) düzənlətdirilir. İqamət təzkərəsi düzənlənən xarici ölkə vətəndaşı tələbələrə Köç İdarəsi Müdirliyi TC yabancı kimlik nömrəsini 1 gün içində verir.

- İqamət təzkərəsi və yabançı kimlik nömrəsinə malik xarici ölkə vətəndaşı tələbələrə təkrar müvəqqəti tələbə sənədi düzənlənərək, Sosial Yardım İdarəsinə ümumi sağlıq sığortalarını həyata keçirmək üçün göndərilir. Sağlıq sığortası işləri 1 gün içimdə tamamlanır.
- İqamət təzkərəsi, TC yabancı kimlik nömrəsi və ümumi sağlıq sığortası işlərini tamamlayan tələbənin sistemə qəti qeydiyyatı gerçəkləşdirilir.
- Qəti qeydiyyatı aparılan xarici ölkə vətəndaşı tələbələrin şəxsi dosyaları əlaqədar birimin tələbə işləri şöbələrinə göndərilir.
- Qəti qeydiyyatdan keçən xarici ölkə vətəndaşı tələbələrin təhsil bilgiləri Köç İdarəsi müdirliyinə, Sosial Yardım İdarəsi müdirliyinə üst yazı ilə göndərilir.

**XARİCİ ÖLKƏ VƏTƏNDAŞI TƏLƏBƏLƏRİN QEYDİYYAT SƏNƏDLƏRİ**:
- Litsey (orta təhsil) diplomunun əsli və ölkələrindəki Türkiyə Respublikası səfirliyi ya da konsulluğundan təsdiqli Türkcə nümunəsi.
- Litsey (orta təhsil) diplomunun əsli Türk litseylərindən alınan diplomlara ekvivalent olduğunu göstərən, Türkiyə Respublikası Milli Təhsil Nazirliyi ya da ölkələrindəki Türkiyə Respublikası səfirliyindən alınacaq dənklik (ekvivalentlik) sənədi.
- Qiymət sənədinin əsli və ölkələrindəki Türkiyə Respublikası səfirliyi ya da konsulluğundan təsdiqli Türkcə örnəyi.
- Rəsmi şəxsiyyət kartının ya da pasportun kimlik bilgiləri görünən səhifəsinin ölkələrindəki Türkiyə Respublikası səfirliyi ya da konsulluğundan təsdiqli Türkcə örnəyi.
- Abituriyentlər 2022 və 2023 ili Yabancı Uyruklu Öğrenci Sınavı (YÖS) sonuc bilgiləri ilə müraciət edə biləcəklər.
- Qatqı payının ödəndiyini göstərən bank dekontu (qeydiyyat əsnasında istənir),
- Beynəlxalq qüvvədə olan xarici dil sənədi və Türkcə yetərlik sənədinin ölkələrindəki Türkiyə Respublikası səfirliyi ya da konsulluğundan təsdiqli örnəyi (varsa istənir).
- 10 ədəd vəsiqəlık foto şəkil.
- TC yabancı kimlik nömrəsi (Türkiyədə Köç İdarəsi tərəfindən 1 gün içində təmin edilir).
- Ümumi sağlıq sığortası (Türkiyədə bölgə Sosial Yardım İdarəsi tərəfindən 1 gündə təmin edilir).
- Namizədlərin ərizə haqqını ödədiklərini göstərən bank qəbzi qeydiyyat zamanı fiziki sənəd kimi təqdim olunacaq.

QEYD: Türkiyə daxilində və xaricində abituriyentlər müraciətlərini Ardahan Universiteti web səhifəsi (www.ardahan.edu.tr) üzərindən ÜBYS - Uluslararası Öğrenci Başvurusu linkiylə həyata keçirəcəklər. Müraciət müddətində gerçəkləşdirilməyən müraciətlər qəbul edilməyəcəkdir.

**ƏLAQƏ MƏLUMATLARI**:
Ardahan Universiteti Rektorluğu
Öyrənci İşləri Dairə Başqanlığı (Tələbə İşləri Departamenti)
Telefon nömrəsi: 0478 211 7575 (kommutator), 1286 (daxili)